AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Azərbaycanda problemli kreditlər yenidən artır

47 dəqiqə öncə




Problemli kreditlər azalmır, artır

Bu il iyunun 1-nə olan məlumata görə, ölkə banklarında vaxtı keçmiş kreditlərin məbləği 635.4 milyon manata çatıb. Mərkəzi Bankın hesabatına əsasən, bu göstərici **mayın 1-i ilə müqayisədə 21.2 milyon manat artıb.**

Apreldə isə problemli kreditlərin həcmində 5 milyon manatdan çox azalma qeydə alınmışdı.

Buna baxmayaraq, **vaxtı keçmiş öhdəliklərin ümumi məbləği ilin əvvəlindən bəri 78 milyon manat, son bir ildə isə 127 milyon manat artıb.**

Rəsmi qurumlar problemli kreditlərdəki bu artım tendensiyasını hələlik şərh etməyiblər. Müstəqil ekspertlər isə prosesi birbaşa əhalinin maddi durumunun və alıcılıq qabiliyyətinin getdikcə pisləşməsi ilə əlaqələndirirlər.

## Xatırlatma

Azərbaycanda 2015-ci ildə iki devalvasiya baş vermiş, manat iki dəfədən çox dəyər itirmişdi. O dövrdə problemli kreditlərin 2 milyard manata yaxınlaşdığı açıqlanmışdı. 2019-cu il fevralın 19-da isə prezident fiziki şəxslərin xarici valyutada olan problemli kreditlərinin həlli ilə bağlı fərman imzaladı. Həmin fərmana əsasən, 10 min dollara qədər kredit götürmüş fiziki şəxslərin 2015-ci il devalvasiyaları nəticəsində yaranmış borc fərqi dövlət tərəfindən ödənildi. Bu addımdan sonra problemli kreditlər azaldı.

2021-ci ilin əvvəlində vaxtı keçmiş kreditlərin yenidən artdığı açıqlandı və bu, koronavirus pandemiyası ilə əlaqələndirildi.

2022-ci ildə isə problemli kreditlərin azaldığı vurğulanırdı.

Amma son bir ildə, əsasən, əks proses müşahidə edilir.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur